*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   31 avqust 2016-cı il   № 67 (2082)   Qiyməti 25 qəpik

*Cəbhə bölgəsindən reportaj*

## Ən uca sevgi Vətən sevgisidir



*Bu yaxınlarda maşında yol gedəndə radioda sevgi haqqında söhbətə qulaq asırdım. Aparıcı eksklüziv müsahibələrində "Həyatda neçə cür sevgi vardır?" sualına cavab axtarırdı. Qarabağ müharibəsi iştirakçılarından biri dedi ki, həyatda ən müqəddəs sevgi Vətən sevgisidir. "Müharibə dövründə üç il nişanlı qalmışam. Əhd-peyman bağladığım qıza söz vermişdim ki, döyüşlər bitməyincə ailə həyatı qura bilmərəm". Jurnalistin "Əgər müharibə başlayarsa, yenə də döyüşə gedərsənmi", - sualına o, tərəddüd etmədən "bəli", dedi, "Vətənimiz olmasa, biz necə yaşaya bilərik?".*

Bu söhbət məni ötən illərimə qaytardı. Böyük Vətən müharibəsində əsir düşən və mühacir həyatı yaşayan bir nəfərin yenə də radioda eşitdiyim söhbətini xatırlayıram. Sovet dönəmində hansısa səbəbdən Vətənə qayıtmayan və kapitalist ölkələrindən birində yaşayan soydaşımız Azərbaycandan olan nümayəndə heyətinin tərkibindəki jurnalistə Vətəni üçün hər gün, hər saat darıxdığını bildirir və əlavə edir ki, "övladlarıma vəsiyyətimdə qəbrimin üzərinə bir ovuc Vətən torpağı səpərsiniz", - demişəm.

Böyük şairlərimiz, ədiblərimiz daim Vətəni ustalıqla vəsf ediblər, Vətənə həsr olunan bir-birindən zəngin əsərlər yaradıblar. Səməd Vurğunun "Azərbaycan" şeirinin yazıldığı vaxtdan illər keçir, hətta siyasi quruluş da dəyişib, amma yenə də bu şeirin misraları böyükdən kiçiyə hamının dilində əzbərdir. Çünki bu şeirin hər misrası Vətən adına yazılıb. Böyük öndərimiz bir dəfə bu şeiri deyərkən möhkəm kövrəlmişdi, həmişə o məqamı dinləyəndə təsirlənməmək olmur.

Həmişə bölgələrə ezamiyyətlərimdə ömrünün qaynar, qiymətli vədəsini Vətənə xidmətə həsr edən gənclərimizlə tanış olmaqdan fəxr duyuram. Hansı bir əsgərdən soruşanda ki, bu postda nə məqsədlə dayanmısan, o zaman qürurla dillənir ki, Vətənimizi qoruyuram. Bu dəfə ən yüksək zirvələrdən birində qərar tutan gənc döyüşçülərimizlə görüşə gəlmişik. Əvvəlki yazımda da qeyd etmişdim ki, sıldırımlı dağlarımızda səngər quran Vətən oğulları ilə görüşlərimizin davamı olacaq. Təkrarçılıq olmasın, bələ çətin şəraitdə Vətənimizin keşiyini çəkən gənclərimizdən ayrılmaq istəmirəm. Axı onların hər biri mayası Vətənə sevgidən yoğrulmuş bir ürək sahibidir.

**(Ardı 3-cü səhifədə)**



Hərbi vərdişlər təlimdə təkmilləşir

4-cü səhifədə



Ordumuz - qürurumuz

5-ci səhifədə



Mükəmməl fiziki hazırlıq yüksək döyüş qabiliyyətinə təminatdır

5-ci səhifədə



Mən də əsgərəm!

7-ci səhifədə

# Müdafiə Nazirliyinin kollegiya iclası keçirilib





*Avqustun 30-da Müdafiə Nazirliyində Silahlı Qüvvələrdə döyüş hazırlığının nəticələrinə həsr olunmuş kollegiya iclası keçirilib.*

Toplantıda Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik və birləşmə komandirləri, qərargah rəisləri və digər məsul zabitlər iştirak ediblər.

Müşavirədə döyüş hazırlığı və nizam-intizamın vəziyyəti, həyata keçirilən fəaliyyətlər, problemlər və onların həlli yolları, əldə olunan nailiyyətlər, əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı nazir müavinləri və birləşmə komandirlərinin məruzələri dinlənilib, qısa və uzunmüddətli perspektivlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğını xüsusi qeyd edərək, xalqımızın və ölkə rəhbərliyinin ordumuzun fəaliyyətinə verdiyi yüksək qiyməti toplantı iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri cari ilin aprel döyüşlərindən sonra işğaldan azad olunmuş ərazilərdə müdafiənin ön xəttinin möhkəmləndirilməsi, hərbi hissələrin müasir silah-sursat və zirehli texnikalarla təchiz edilməsi, şəxsi heyətin döyüşə hazırlığının səviyyəsi, hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti və nizam-intizamın gücləndirilməsi, eləcə də onların sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində vəzifəli şəxslər qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda kollegiya iclasında irəli sürülən təkliflər müzakirə edilərək qərar layihəsi qəbul edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Lənkəranda istirahətdə olan aprel döyüşçülərinin bir qrupu ilə görüş keçirilib

*Müdafiə Nazirliyinin dəstəyi, Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü və maliyyə dəstəyi ilə aprel döyüşlərinin bir qrup iştirakçısının Lənkəran rayonundakı "Palıdlı sahil" istirahət mərkəzində ailə üzvləri ilə birlikdə istirahətləri təşkil olunub. Yerli ictimaiyyət nümayəndələri və qarnizonun əsgərləri istirahət mərkəzində aprel döyüşlərinin iştirakçıları ilə görüşüblər.*





Tədbirdə ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik Abdulla Qurbani aprel döyüşlərində Azərbaycan əsgərinin xalqımıza böyük qələbə sevinci yaşatdığını qeyd edərək bildirib ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə başlayan ordu quruculuğu prosesi bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Ordusunun regionda ən güclü ordu olduğunu və onun maddi-texniki təchizatının möhkəmləndiyini vurğulayan Abdulla Qurbani Milli Ordumuzun yeni döyüş texnikaları - zenit artilleriya qurğuları, təyyarələr, helikopterlər, gəmilər, lazımi silah-sursatlarla təmin olunduğunu diqqətə çatdırıb.

Lənkəran Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Əlimərdan Əliyev rayonun ən səfalı guşələrindən birində ailələri ilə dincələn aprel döyüşlərinin qazilərini lənkəranlılar adından salamlayaraq, Azərbaycan Prezidentinin şəhid ailələrinə, əlillərə və müharibə veteranlarına göstərdiyi diqqət və qayğıdan danışıb.

Ə.Əliyev qeyd edib ki, aprel döyüşlərində ölkəmizin bütün bölgələrindən olan hərbi qulluqçular kimi, lənkəranlı gənclər də şəxsi rəşadət və şücaət göstəriblər. Onlardan iki nəfəri şəhidlik zirvəsinə ucalıb.

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli partiyanın təşəbbüsünü yüksək dəyərləndirərək, aprel döyüşlərində şəhid olmuş və yaralanmış hərbi qulluqçuların ailələrinə göstərilən dövlət qayğısından danışıb, bu ənənənin gələcəkdə də davam etdirilməsinin vacibliyini bildirib.



Lənkəran Rayon Ağsaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov, veteran-jurnalist Etibar Əhədov və başqaları çıxışlarında aprel döyüşlərinin Azərbaycan xalqının və ordusunun ruh yüksəkliyinə səbəb olduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, YAP-ın təşəbbüsü ilə aprel döyüşlərinin 50 iştirakçısının ailə üzvləri ilə birlikdə istirahət mərkəzində dincəlməsinin təmin olunması təqdirəlayiq haldır.

Daha sonra aprel döyüşlərinin qaziləri xatirələrini dilə gətirərək, bundan sonra da Vətənin müdafiəsi, torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün əllərindən gələni etməyə hazır olduqlarını bildiriblər.

Tədbirdə hərbi-vətənpərvərlik mövzusunda şeirlər və mahnılar ifa olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ən uca sevgi Vətən sevgisidir

(Əvvəli 1-ci səhifədə)



Zabit Ramin Məlikovun komandiri olduğu bölmənin şəxsi heyəti də dağların zirvəsində yerləşən döyüş postlarında qarşıya qoyulan mühüm tapşırıqların öhdəsindən məsuliyyətlə gəlir. Axşam ön xətdəki bölmələrin birində gecələdiyimiz üçün bu bölməyə səhər tezdən çatırıq. Dağların şehli, sərin havası adamın iliklərinə dolur, düşünürəm ki, indidən burada hava belə mülayimdirsə, gör qışı necə olacaq? Bir anlığa Vətənimizi qoruyan gənclərimiz haqqında fikirləşirəm, nəzərimdə hər birinin heykəli canlanır. Qoy xalqımız əmin olsun ki, ən sərt şəraitdə belə igid əsgərlərimiz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıblar.

Bölmə komandiri səhər düzülüşünün yenicə başa çatdığını bildirərək hər bir zabitin postlara baş çəkmək üçün hazırlaşdığını deyir:

- Gecə-gündüz postlarda oluruq, qarşı tərəfi müşahidə edirik, əgər dəyişikliklər hiss edilirsə, komandanlığa məlumat verilir. Yeri gəlmişkən qeyd edim ki, cavabdeh zabitlər də ardıcıl olaraq döyüş postlarına baş çəkirlər. Gecənin bir vaxtı döyüş növbəsində dayanan əsgər yüksək rütbəli zabiti yanında görəndə ürəklənir, daha həvəslə xidmət edir. Bizim bölmədə məzuniyyətlə bağlı, əsgərlərin qayğıları ilə əlaqədar heç bir problem yoxdur. Bir döyüşçü xidmət müddətində bir neçə dəfə məzuniyyətdə ola bilər. Komandanlığın şəxsi heyətə olan belə yüksək etimadı əsgərlərimizi, Vətənə şərəf və məsuliyyət hissi ilə xidmət etməyə ruhlandırır.

Zabitə görə, əsgərlərin nümunəvi xidmətini təmin edən ən başlıca amil onların ailədə, məktəbdə vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Müasir dövrdə Azərbaycanda böyüməkdə olan nəslin mübarizlik, qəhrəmanlıq ruhunda tərbiyəsinə ciddi fikir verilir. Bu gün nəinki birinci sinif şagirdi, hətta bağça yaşlı uşaq da Dövlət himnimizi əzbər bilir. Yəni istər valideynlər, istərsə də müəllimlər müstəqil Vətənimizin keşiyində dayanacaq bir nəsil yetişdirməyi özlərinə müqəddəs vəzifə bilirlər. Əgər valideyn cəbhə xəttində xidmət edəcək övladını əsgərliyə toy-bayramla yola salırsa, belə gənclərin Vətənin keşiyində mətin dayanacaqları şübhə doğura bilməz. Vətənə canbaşla, şərəflə xidmət etməyi qarşısına məqsəd qoyan oğullar döyüşlər olarsa qəhrəmanlıqla vuruşmağa hazırdılar. Məgər aprel döyüşləri bu həqiqəti gerçəklyə çevirmədimi?



Sonra söhbətimizi komandirin təcrübəli döyüşçü kimi təqdim etdiyi əsgər Rüstəm Xəlilovla davam etdirirəm. Orduya Kürdəmir rayonundan çağırılmış əsgərin hərbi xidmətini başa çatdırmasına cəmi bir ay qalıb. Rüstəmin ordu həyatı ilə bağlı fikirlərini, təəssüratlarını maraqla dinləyirəm: "Hərbi xidmətimi başa vurmağa az vaxt qalıb. Hərdənbir ötən aylara, orduda keçirdiyim ömrümün bir hissəsinə nəzər salanda düşünürəm ki, Vətənə övlad haqqımı yerinə yetirmişəm. Amma tək əsgər olmaqla bu vəzifəni bitmiş hesab etmirəm. Nə vaxt lazım olarsa, yenə də Vətənimin haqqından çıxmağa hazıram. Əsgər yataqxanamızın dəhlizinə daxil olanda divar boyu Milli Qəhrəmanların şəkillərinə tamaşa edirik. Bu gün Azərbaycanın hər yerində onları tanıyırlar, çünki bu oğullar Vətən naminə canlarını əsirgəməyiblər. Gərək biz də onların layiqli davamçıları olaq, bu məqsədlə qarşımıza qoyulan döyüş tapşırıqlarını məsuliyyət hissi ilə yerinə yetiririk. Xidmətim müddətində silahsursatla rəftarın sirlərini mənimsəmişəm, buna görə də döyüşə atılmağa tam hazıram. Əsgər yoldaşlarımın hamısı ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə hazırdılar. Biz aprel qəhrəmanlarının döyüş yolunu davam etdirməyə və tariximizin yeni qəhrəmanlıq salnaməsini yaratmağa qadirik".

Döyüş postunda söhbətimizi hərbi xidmətə Göyçay rayonundan çağırılmış əsgər Zakir Vəliyevlə davam etdirirəm. Zakir də əsgəri xidmətinin xeyli hissəsini başa vurub. Deyir ki, belə səfalı təbiəti ilk dəfədir ki, buralarda görür.

- Tələbkar komandirlərimiz, post başçılarımız var, - deyir əsgər. - Onların qayğısı, köməyi sayəsində hərbi mühitin sirlərinə alışırıq, ən başlıcası Vətənimizi qorumağı öyrənirik. Gecənin bir aləmində torpaqlarımızın keşiyində dayananda düşüncələrim baş qaldırır. Fəxr hissi keçirirəm ki, əgər bu dağların yamyaşıl ətəklərində aran bölgəsindən olan adamlar öz sürülərini əmin-arxayın otarırsa, bu yerdə bizim zəhmətimiz, əməyimiz vardır. Təbiət qış aylarında bizi yaman sınağa çəkir, günlər olur ki, qarın-çovğunun arası kəsilmir. Amma dövlətimiz, ordumuzun rəhbərliyi burada bizə yüksək səviyyədə şərait yaradıb. Yemək-içməyimiz, məişətimiz sarıdan heç bir problem yoxdur, vaxtlı-vaxtında ərzaqla təmin olunuruq.

Əsgər düz deyir, kənar yerlərdən gəlib bu səfalı yaylaqlarımızda dincələn, təsərrüfat qayğılarıyla məşğul olan insanları görəndə, hiss edirsən ki, onlar döyüşçülərimizin hünərinə, qorxmazlığına güvənirlər. Bu gün xalqımızın orduya, əsgərə güvənci böyükdür. Bu inam, etimad isə hər bir əsgər və zabitimizə könül xoşluğu verir.



Ağdaş rayonundan olan Nurlan Zeynalov da komandiri zabit Ramin Məlikov olan bölmənin öncül əsgərlərindəndir. Nurlandan soruşuram ki, komandir sənə inanırsa, etibar edirsə, bəs sən bu etimadı necə doğruldursan?

- Əvvəlcə komandirin bizə doğmalığı barədə danışmaq istərdim. Zabit Ramin Məlikov kimi vətənpərvər komandirlərimiz var. Həmişə qayğımıza qalır, ailə vəziyyətimizlə, valideynlərimizlə maraqlanırlar. Komandir deyir ki, siz döyüş postunda keşik çəkəndə biz sizlərə inanırıq, etibar edirik. Şübhəsiz, borcumuz bu etimadı, inamı doğrultmaqdır. Bunun üçün döyüş vərdişlərimizi artırmağa səy göstəririk, bizə etibar olunan mövqelərdə ayıq-sayıq, məsuliyyət hissi ilə keşik çəkirik. Yaxşı bilirik ki, bizə tək komandirlərimiz yox, xalqımız, millətimiz güvənir.

- Aprel döyüşləri haqqında nə bilirsən?

- Aprelin ilk günlərində cəbhənin müxtəlif istiqamətlərində düşmənin təxribatlar törətdiyini eşidən kimi döyüşmək istəyimizi komandirə bildirdik. Amma komandirimiz dedi ki, əmr gözləyirik, əmr alsaq döyüşə atılarıq. Bir faktı qeyd etmək istərdim ki, həmin günlər tərxis olunacaq silahdaşlarımız da komandirə dedilər ki, biz qalıb döyüşmək, torpaqlarımızı düşməndən azad etmək və evimizə zəfər qazanmış döyüşçü kimi qayıtmaq istəyirik. Hamının əli silahın tətiyində idi, düşmən üzərinə şığımaq üçün bircə əmr gözləyirdik.

Vətənimin ucqar bir nöqtəsində, əlçatmaz zirvədə qərar tutan döyüşçülərimizin hər biri ilə tanış olmaqdan fərəhlənirəm. Qürurluyam ki, ürəyi Vətən sevgisi ilə döyünən gənclərimiz torpaq uğrunda savaşa atılmaq və qalibiyyət qazanmaq əzmindədirlər. Silah tutan əliniz var olsun, nişangaha dikilən gözünüz nurlu olsun. İnşallah, yaxın bir vaxtda ordumuzun zəfər yürüşü ilə Vətənimizin bütövlüyü təmin ediləcək və yurdumuzun bundan da uca zirvələrinə ayaq açacağıq.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

*Döyüş hazırlığı*

# Hərbi vərdişlər təlimdə təkmilləşir



*Qatar lap erkən saatlarda stansiyaya çatdı. Vaqondan düşüb aran torpağına ayaq basanda hava hələ işıqlaşmamışdı. Gözlədiyimin əksinə hava yetərincə sərin idi. Qatar ayağında müştəri gözləyən taksilərdən birinə əyləşib mənzil başına yola düşəndə də sürücü ilə ilk söhbətimiz hava barəsində olur. Üzünü nazik tük basmış yerli sakin qaranlıqda gözünü yola zilləyib:*

- Bu yerlərin havası belədir, - deyir. - Səhərlər sərin olur, günortaya yaxın isti qora bişirir.

Hərbi hissəyə çatanda şəxsi heyət artıq ayaqda idi. Artilleriyaçılar yay rejiminə və günün nizam qaydalarına uyğun fəaliyyətə başlamışdı. Günorta vaxtlarında isə onlar bütün tədbirləri Müdafiə Nazirliyinin müəyyən etdiyi yay rejiminə uyğun olaraq açıq havada deyil, qapalı şəraitdə həyata keçirirlər.

Hərbi hissələrimizdə Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına əsasən topçuların da yüksək ixtisas hazırlığına malik olması üçün bütün lazımi tədbirlər gerçəkləşdirilir.

Artilleriyaçıların qarşısında əsas vəzifə gecəli-gündüzlü döyüş bacarığını yüksəltməkdən ibarətdir. Bunun üçün şəxsi heyət gündüz və gecə məşğələlərinə cəlb edilir, ixtisas və taktiki baxımdan bilik və təcrübələrini möhkəmləndirirlər.

- Yüksək döyüş hazırlığına nail olmaq bütün hərbi bölmələrin qarşısında duran başlıca vəzifədir, - zabit İlqar Muxtarov bizimlə söhbətində vurğuladı. - Sadə dillə desək, əsgərlərə döyüşdə zəruri olan cəhətləri, müasir döyüşdə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyi öyrətmək və yüksək mənəvi-döyüş keyfiyyətləri tərbiyə etmək üçün bütün tədbirlər görülür.



Hərbi əməliyyatlar zamanı topçulardan da çox şey asılıdır və döyüşçülərimiz bunu aydın dərk edirlər.

Zabit İbad Qəhrəmanovun komandiri olduğu bölmədən yazı hazırlamaq qərarına gəlirik. İbad Qəhrəmanov uzun illərdir ki, Silahlı Qüvvələrimizdə xidmət edir, təcrübəli artilleriyaçıdır. O, bilik və vərdişlərini məmnuniyyətlə tabeliyindəki şəxsi heyətə öyrətməyə çalışır. Elə buna görədir ki, onun yetirmələri hərbi hissənin ən hazırlıqlı topçularından sayılır.

Zabit İbad Qəhrəmanovla hərbi hissənin təlim mərkəzində rastlaşırıq. Məlum olur ki, artilleriyaçılar burada döyüş hazırlığı ilə məşğul olurlar. Səhər tezdən bölmənin şəxsi heyəti həyəcan siqnalı ilə qaldırılaraq əraziyə çıxarılmış, döyüş vəziyyətinə gətirilmişdi. Onlar planlı və plandankənar hədəflərə atış tapşırıqlarını yerinə yetirirdilər.

- Hazırda bölmələrimizin döyüş qabiliyyəti yüksəkdir, - təcrübəli artilleriyaçı vurğulayır. - Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı belə deməyə əsas verir ki, istənilən vaxt döyüş tapşırığı verilərsə, topçularımız onu can-başla yerinə yetirməyə hazırdır. Bütün heyətlər döyüş hazırlığı sahəsində lazımi bilik və vərdişlərə yiyələniblər.

Söhbət zamanı məlum olur ki, İbad Qəhrəmanovun komandiri olduğu bölmə birlik üzrə yarışın qalibidir. Bu səbəbdən kollektiv qarşıda daha bir sınaqda - Silahlı Qüvvələrdə ən hazırlıqlıların mübarizəsində iştirak edəcək.

- Bizim şəxsi heyəti Silahlı Qüvvələrdə ən yaxşı artilleriya bölməsi adı uğrunda yarışa cəlb ediblər, - komandir deyir. - Birlik üzrə keçirilmiş yarışda birinci yerə çıxdıq. Biz eyni zamanda Silahlı Qüvvələr üzrə keçiriləcək ən yaxşı artilleriya bölməsi adı uğrunda yarışda iştirak etmək üçün hazırlaşırıq.

Məşğələnin gedişi göstərdi ki, topçular öz vəzifələrinə məsuliyyətlə yanaşmağa və öhdələrinə düşən işi komandirlərinin öyrətdiyi qaydada yerinə yetirməyə çalışırlar. Təbii ki, şəxsi heyətin uğuru ilk növbədə zabitlərin hazırlığından və öz vəzifə borclarına münasibətindən asılıdır. Hər bir kollektiv döyüş hazırlığı sahəsində fərqlənirsə, yaxşıların, nümunəvi xidməti və hərbi intizamı ilə seçilən zabit və əsgərlərin hesabına buna nail olur. Kollektivin qazandığı uğurlarda zabitlərin zəhmətini qeyd etmək yerinə düşər. Ona görə zabit Qəhrəmanov öncə bacarıqlı zabitlərin adlarını qeyd edir. Onlardan baş leytenantlar Z.Quliyev, E.Əşrəfli, leytenantlar A.Əliyev, V.Mürsəlov öz xidməti vəzifələrinə yetərincə məsuliyyətlə yanaşır, məşğələ və təlimlərdə bilik və bacarıqlarını əsirgəmirlər. Məhz belə savadlı və bacarıqlı zabitlərin sayəsində minaatanlar onlara həvalə edilmiş silahların “dilini” lazımınca öyrənir və onlardan sərrast atəş açmağı mənimsəyirlər.



Ümumiyyətlə, intizamlı və nümunəvi davranışı ilə bərabər yaxşı hazırlıq nümayiş etdirən döyüşçülərdən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları top komandirləri kiçik çavuşlar İlkin Əsgərovun, Elşad Əlizadənin və digər peşəkar topçuların adlarını qeyd etmək olar. Adları çəkilən top komandirləri əsgər kimi xidmətlərini başa vurublar. Ordu sıralarından tərxis edildikdən sonra yenə hərbi xidmətə qayıtmaq qərarına gəliblər. Onlar həmişə çalışqanlığı, intizamı ilə fərqlənirlər, öz heyətləri ilə birlikdə daha üstün hazırlığa malikdirlər.

- Ən başlıca məqsədimiz şəxsi heyətin döyüş qabiliyyətini möhkəmləndirməkdir, - baş leytenant Zaur Quliyev bildirir. - Döyüş hazırlığı dərsləri planlaşdırılmış qaydada icra edilir. Şəxsi heyət qruplarda öz ixtisas, atəş və taktiki vərdişlərini artırırlar. Burada çöl şəraitində döyüşçülərimiz atış və atəşin idarə edilməsini məşq edirlər.

Bölmələrə həvalə edilmiş hərbi texnika, avtomobillər, silahlar təzə və müasirdir. Döyüş hazırlığı dərsləri bacarıqlı zabitlər tərəfindən vaxtında keçirildiyindən şəxsi heyət lazımi bilik və peşə vərdişlərinə yiyələnib. Bir sözlə, döyüşçülərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdirlər.

Xoşdur ki, hərbi hissədə şəxsi heyətə vahid birlik, kollektivçilik duyğuları aşılanır, müxtəlif bölgələrdən hərbi xidmətə çağırılmış gənclər burada vahid ailənin üzvlərinə çevrilirlər. Döyüş hazırlığı sahəsində qazanılmış uğurların bir səbəbi də məhz budur.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Ordu və cəmiyyət

# Ordumuz - qürurumuz

*Vətənimizin, xalqımızın gələcəyini daim düşünən ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi "Vaxt gələcək Azərbaycan güclü silahlara, peşəkar zabitlərə, qısası, qüdrətli orduya sahib olacaq" fikri artıq gerçəkliyə çevrilib.*

Bu gün əsgər deyəndə gözlərindən mərdlik yağan, güvənəcəyimiz Azərbaycan oğullarını görürük. Yunis İsmayılov da belə bir oğul atasıdır. Onunla bir neçə ay əvvəl "N" hərbi hissəsində "Açıq qapı" günü tədbirində tanış olduq. Çöhrələrə təbəssüm, ürəklərə rahatlıq verən belə mühüm tədbirin təəssüratlarını öyrənmək üçün valideynlərə yaxınlaşarkən onun da üzündəki razılıq ifadəsi, gözlərindən aşıb-daşan sevinc diqqətimi cəlb etdi. Öyrəndim ki, Gəncə şəhərindən gəlib. Oğlu Elvin bir ildir Vətən qarşısında müqəddəs övlad borcunu yerinə yetirir. Valideyn öncə ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürünü bildirərək dedi:

- Məhz onun qayğısı nəticəsində ordumuz günü-gündən güclənir. Müstəqillik əldə etməyimizdən uzun zaman keçməyib. Amma ordumuz dünyanın inkişaf etmiş ölkələrinin orduları ilə müqayisə ediləcək səviyyədədir. Aprel döyüşləri isə ordumuzun gücünün parlaq sübutu oldu.

Valideyn ordumuzda ənənə halını alan "Açıq qapı" gününün keçirilməsinin çox bəyənilən, təqdirəlayiq bir hal olmasını qeyd etdi. Bildirdi ki, oğlunun həm hərbi andiçməsində, həm də "Açıq qapı" günündə doğmaları, yaxınları ilə birlikdə iştirak edib.

- Biz valideynlər övladlarımızın xidmət yerləri ilə yaxından tanış olub, gündəlik məişət şəraitinin nə qədər yüksək olmasını öz gözlərimizlə gördük. Az öncə əsgər yataqxanasında olduq, ürəyimiz sevincdən dağa döndü. Əsgər övladlarımızın məişət şəraitinə baxanda adamın ürəyi açılır. Hamam-camaşırxana və yeməkxananı da gəzdik. Hər tərəf təmiz və səliqəli idi. Qürur, fəxr hissi ilə demək istəyirəm ki, ordumuzda əsgərlərin nümunəvi xidməti, istirahəti, məişəti üçün yüksək şərait yaradılıb. Dövlətin gücü, qüdrəti məhz onun ordusunun hansı səviyyədə olmasından asılıdır. Bu gün burada gördüklərimdən sonra tam əminliklə deyərdim ki, müasir ordusu, qabaqcıl hərbi texnikası, əsgərinin mənəvi-psixoloji və döyüş hazırlığı güclü olan xalqımızın qarşısında düşmən heç



vaxt tab gətirə bilməyəcək. Belə bir orduda qulluq etmək qürurvericidir. Mən keçmiş sovet ordusunda qulluq etmişəm. Heç nəhəng imperiya ordusunda belə şərait yox idi. Yeri gəlmişkən qeyd edim ki, müasir gənclərimiz çox xoşbəxtdirlər - onlar öz doğma Vətənlərində müddətli həqiqi hərbi xidmət keçirlər. Bunun nə qədər təsirli, qürurverici bir hal olmasını keçmiş Sovet ordusunda xidmət edən hər kəs təsdiqləyə bilər.

Müstəqil bir dövlətin vətəndaşı olub "mənim Vətənim" deyə bilmək çox böyük xoşbəxtlikdir. Bu müstəqillik igid, mərd oğullarımızın həyatı bahasına qazanılıb. Bugünkü gənclərimiz də müstəqilliyimizi canları bahasına qoruyur, işğal altında olan torpaqlarımızı geri qaytarmaq və şəhidlərimizin qisasını almaq arzusu ilə yaşayır. Onlar Ali Baş Komandanın əmrinə hər an müntəzirdilər.

Əsgər atası söhbətimizdə bildirdi ki, övladı torpaqlarımız uğrunda həyatını qurban vermiş şəhid Samir Vəliyevin adını daşıyan orta məktəbi bitirib. O, daim Vətənimizə, xalqımıza layiq övlad olacağına söz verib.

Əsgər valideyni həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənovun davamlı olaraq ön xətdə olmasını, əziz bayramları səngərlərdə əsgərlərlə birlikdə keçirməsini də qürurla xatırladtı. "Ordumuza inanırıq və övladlarımızı çox böyük güvən, inam hissi ilə hərbi xidmətə yola salırıq."

Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir. Biz belə qüdrətli bir ordu ilə Vətənimizi yağılardan qorumağa, işğal altında olan torpaqlarımızı azad etməyə həmişə hazırıq. Dövlətin və xalqın dəstəyi ilə güclənən ordumuz, müasir hərbi sənayemiz, iqtisadi imkanlarımız Qələbənin çox yaxında olduğundan xəbər verir.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Fiziki hazırlıq

# Mükəmməl fiziki hazırlıq yüksək döyüş qabiliyyətinə təminatdır

*Orduda hərbi xidmətin bütün sahələri ilə yanaşı fiziki hazırlığa da ciddi diqqət yetirilir. Bu heç də təsadüfi deyil. Yaxşı bilirik ki, hər bir döyüşçü sağlam və fiziki cəhətdən güclü olmalıdır. Bunun üçün Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, şəxsi heyətin fiziki hazırlığının artırılması məqsədilə hərbi hissələrdə idman yarışları keçirilir, fərdi və komanda birincilikləri təşkil edilir.*



Bu yaxınlarda cəbhə xəttindəki bölmədə olanda zabit Nail Səmədov bildirdi ki, əsgərin fiziki cəhətdən sağlam və güclü olması döyüş hazırlığının vacib şərtlərindəndir. "Bu məqsədlə şəxsi heyətlə idman çalışmaları yerinə yetirilir, komandalararası futbol, voleybol və başqa yarışlar keçirilir. Bu da öz növbəsində şəxsi heyətin sağlamlığına, döyüş vərdişlərinin artırılmasına kömək edir."

Qərargahdan bir qədər aralıda idman şəhərciyi yerləşir. Əsgərlər burada fiziki hazırlıqlarını artırırlar. Biz hərbi hissədə olarkən günün nizam qaydalarına uyğun olaraq əsgərlər axşam idmanında idi. Gizir Nurlan Hüseynov tabeliyində olanları turnik, paralel qollar və başqa qurğulara cəlb edərək onların fiziki bacarıqlarını yoxlayırdı. Əsgərlər arasında bütün çalışmaları normaya uyğun yerinə yetirənlər çox idi. Həmsöhbət olduğum əsgər Aleksandr Rəsulov bir ilə yaxındır ki, Bakı şəhərindən ordu sıralarına çağırılıb. Yeniyetmə dövründə idmana böyük maraq göstərdiyini deyən əsgər hərbi xidmətdən əvvəl həmyaşıdları arasında "Qaydasız döyüş" idman növü ilə məşğul olduğunu bildirir. Hərbi xidmət dövründə də idman çalışmalarının yerinə yetirilməsinə maraqlı olan əsgər deyir:



- Erkən yaşlarımdan idmana maraq göstərməyə başladım. Bu sahədə atamın həmişə dəstəyini görmüşəm. O deyirdi ki, sən güclü və sağlam böyümək üçün daim çalışmalısan. Böyüdükcə idmanın nə qədər faydalı olduğunu dərk etdim. Əsgər yoldaşlarımla tez-tez idman şəhərciyində oluram. Bu da fiziki vərdişlərimizin artırılmasına kömək edir.

Əsgərlərlə qısa tanışlıqdan öyrənirəm ki, Elnur Qəniyev də bütün fiziki çalışmaları vaxtında və dəqiq yerinə yetirir. "Bir ildən artıqdır hərbi xidmətdəyəm. İlk günlərdə bizi fiziki hazırlıq məşğələsi keçmək üçün idman şəhərciyinə gətirdilər. Turnikdə və başqa idman alətlərində çalışmaları yüksək səviyyədə yerinə yetirən yoldaşlarıma həsəd aparırdım. Qarşıma məqsəd qoydum ki, istər fiziki, istərsə də döyüş hazırlığında əsgər yoldaşlarımdan geri qalmayım. İndi çox sevinirəm ki, bütün idman normativlərinin öhdəsindən gəlirəm."

Babək Allahyarlı ilə söhbətimə davam edirəm. Əsgərin ordu sıralarından tərxis olunmasına az qalıb. Babək həm ali təhsillidir, həm də idmançıdır. Boksla müntəzəm məşğul olub. Hərbi xidmətdən əvvəl Türkiyədə və başqa ölkələrdə keçirilən yarışların qalibi olub.

Əsgərlərdən İlkin Qasımzadə, Ramin Mirzəzadə və başqaları da söhbətlərində fiziki hazırlığa önəm verdiklərini bildirdilər. Hərbi xidmətdə belə idman şəraitinin olması onların ürəyindəndir...

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Nümunəvi xidmət

# "Adımızla fəxr edirik"



*Ordumuzun dağ və meşə zolağında düşmənlə sərhəddə yerləşən bölmələrindən birindəyik. Dağ yolları, keçilməz sıldırım qayalıqlar, qalın meşə zolağı bu ərazilərdə xidmətin nə qədər çətin və ağır olduğundan xəbər verir. Dayaq məntəqələrimizdə güclü müdafiə istehkamı yaradılıb.*

Mövqelərimizə çatanda günorta olmuşdu. Şəxsi heyət nahar yeməyinə hazırlaşırdı. Bölmənin yerləşdiyi dağlıq, meşəlik əraziyə diqqət edirəm. Ana təbiətin Vətənimizə bəxş etdiyi əsrarəngiz gözəlliklər adamın ruhunu oxşayır. Hər tərəfdə təmizlik, səliqə-sahman. Təbliğat yönümlü lövhələrdə ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna aid kəlamları yerləşdirilib. "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır." Ölkə başçısının söylədiyi bu fikir iri lövhədə hər kəsin diqqətini çəkir.

Şəxsi heyətin ictimai-siyasi hazırlığını artırmaq məqsədilə bölmədə divar mətbuatı, hüquq guşəsi fəaliyyət göstərir. Diqqətimizi çəkən digər məqamlardan biri də ordu rəhbərliyinin şəxsi heyətlə görüşlərini əks etdirən foto-guşədir.

- Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir, - zabit Samir Əsgərov bildirir. - Şəxsi heyətin ictimai-siyasi və döyüş hazırlığı biri-biriylə sıx bağlı olan vacib amillərdir. Hər iki hazırlıq paralel aparılmalıdır. Misal üçün, aprel döyüşlərini qeyd edək. Şəxsi heyətin döyüş əzmi, döyüş ruhu o qədər yüksək idi ki, başqa ərazilərimizdə xidmət edən əsgərlər də düşmənlə vuruşmaq üçün komandanlığın əmrini gözləyirdilər. Bütün bunlar bu gün də, sabah da - hər zaman şəxsi heyətə söyləniləsi nümunələrdir.

Söhbətimizi döyüş növbəsindən qayıdan əsgərlərimizlə davam etdiririk. "Döyüş növbətçiliyiniz necə keçdi?" sualımı əsgər Çingiz Abbasov belə cavablandırır: "Sakitlikdir. Düşmən tərəfimizdən ayıq-sayıqlıqla izlənilir. Müşahidə məntəqəsində düşmənin bir hərəkətini belə gözdən qoymuruq. Səhər tezdən yenə posta qalxacağıq. Burada dağ şəraitində, xüsusilə qış aylarında xidmət etmək nə qədər çətindirsə, bir o qədər də şərəflidir. Vətən torpaqlarını yağılardan qorumaq biz oğulların borcudur. İnşallah, hərbi xidmətimi başa vurduqdan sonra orduda qalıb hərbi qulluğumu davam etdirəcəm."

Öyrənirəm ki, Çingiz Balakən rayonundandır.

Əsgər Kamran Həsənov Ağcabədi rayonunun Kəhrizli kəndində doğulub. Deyir ki, hərbi mühit onu çox dəyişdirib. "Burada elə bil həyat dərsi öyrənirsən. Əsgərliyin həqiqətən kişilik məktəbi olduğuna inanmışam. Hərbi xidmət dövründə yaranan dostluq, yoldaşlıq unudulmur. Günlər ötdükcə bir ailənin üzvü kimi bir-birimizə daha da sıx bağlanırıq. Komandirlərimizin səmimi münasibəti bizi orduda hərbi xidmətimizi davam etdirməyə ruhlandırır."



...Çingiz, Kamran, Bəxtiyar,... kimi mərd oğullar gecə-gündüz yayın qızmarında, qışın sazağında səngərlərdə müqəddəs Vətən torpağının keşiyini çəkir, "Əsgər adı ilə fəxr edirik!" kəlmələrini söyləməkdən qürur duyurlar.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"
fotolar
çavuş
N.PƏNAHOVUNDUR**



Məişət

# Təmizlik imandan gəlir

Ölkə rəhbərliyinin Silahlı Qüvvələrimizə göstərdiyi diqqət və qayğı, aparılan islahatlar hər sahədə olduğu kimi əsgərlərimizin məişətinə də təsirsiz ötüşməyib. Yeni kazarmalar, əsgər yeməkxanaları, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilir. Arxa cəbhədə olduğu kimi döyüş postlarında da bunların şahidi oluruq. Dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən və düşmənlə üz-üzə dayanan döyüş mövqeyində gördüyümüz şərait həqiqətən ürəkaçan idi.

Maşının çətinliklə qalxdığı daşlı-kəsəkli yolları düşündükdə yaradılan bu şərait necə sevindirici olmaya bilər. Bütün bunlarla yanaşı səliqə-sahman, ətrafdakı təmizlik də diqqətimizdən yayınmır.

Taqım komandiri baş leytenant Anar Xalverdiyev əsgərlərin hər birinin öz şəxsi gigiyenasına, əsgər yataqxanasının təmizliyinə ciddi diqqət etdiklərini deyir. "Həm nizam-intizam, həm təmizlik, həm də cəsarət baxımından əsgərlərdən çox razıyam. Həmçinin hər bir əsgər yaradılan abad şəraitin qorunmasına çalışır. Çünki xidmətlərini başa vurduqdan sonra başqa əsgərlərin gələcəyini dərk edir, onların çətinlik çəkməsini istəmirlər. Gördüyünüz kimi, təmiz yataq dəstləri, əl-üz və ayaq dəsmalları, hamamxana əsgərlərimizin ixtiyarındadır. Bütün bunlarla yanaşı asudə vaxtlarını , televizora baxaraq, stolüstü oyunlar oynayaraq, qəzet və jurnallar oxuyaraq mənalı keçirirlər", - deyir gənc zabit.

Hərbi xidmətə Lerik rayonundan çağırılan Fərid Bəşirov deyir ki, qardaşları Rakim və Sadiq də ön xətdə xidmət keçiblər. Onlar Fəridə nizam-intizamlı, təmizkar olmağı, qorxmazlığı tövsiyə ediblər. "Həqiqətən də hər birimiz dərk edirik ki, təmizlik imandan gəlir. Hər kəs evinin, iş yerinin təmiz olmasına çalışır. Bura da bizim evimizdir. Postumuzda təmizlik, səliqə-sahmana ciddi fikir veririk. Sağlamlığımızı qorumaq üçün hamımız təmizliyə riayət etməliyik."

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Litvalı jurnalistlər Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər

Beynəlxalq Avrasiya Mətbuat Fondunun dəstəyi ilə Azərbaycana səfər edən Litva Jurnalistlər İttifaqının vitse-prezidenti, "Alkas.lt" internet portalının redaktoru Audris Antanaytis və həmin media orqanının fotoqrafı Arunas Sartanaviçüs Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

AZƏRTAC-a bildirilib ki, litvalı jurnalistlərə 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılmış kompleks haqqında məlumat verilib.

Burada 1918-ci il mart-iyul aylarında Bakı quberniyasının beş qəzasında - Bakı, Şamaxı, Quba, Cavad və Göyçayda müsəlman əhalinin soyqırımı tarixi əksini tapıb. Kompleksdə qədim Quba həyatını, dinc, yanaşı yaşayan azərbaycanlı, ləzgi, yəhudi və digər xalqların nümayəndələrini, müxtəlif sosial təbəqələrə aid insanları əks etdirən şəkillər də sərgilənir.

Müxtəlif qəzalarda baş vermiş soyqırımlar zamanı kütləvi şəkildə xüsusi qəddarlıqla öldürülən insanların əksəriyyəti yandırılıb, dənizə, quyulara atılıb və bu səbəbdən onları dəfn etmək mümkün olmayıb. Zalın mərkəzində belə qurbanların xatirəsinə qara mərmər daş ucaldılıb. Muzeydə hər bir qəzanın tarixi faciəsi ayrı-ayrı bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilir.

Audris Antanaytis muzey kompleksini ziyarət etməkdən təsirləndiyini bildirib, buradakı xatirə kitabına ürək sözlərini yazıb. O, insanlığa utanc verən bu faciənin tarixi qiymətini almasının vacib olduğunu bildirib.

**AZƏRTAC-ın
materialları əsasında**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistana məxsus PUA məhv edilib

Naxçıvan Muxtar Respublikası istiqamətində hava məkanımızı pozmağa və Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Əlahiddə Ümumqoşun Ordusu hava hücumundan müdafiə bölmələrinin döyüş növbətçiliyi aparan atəş vasitələri tərəfindən məhv edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***29 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində qumbaraatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***30 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində qumbaraatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 16 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt kəndi yaxınlığında, həmçinin Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.



*Əsgər məktubu*

# Mən də əsgərəm!

Salam, hörmətli redaksiya. Mən, əsgər Fərhad Əhmədov hərbi andı bir neçə gün əvvəl qəbul etmişəm. Ali təhsilliyəm. Tələbəlik illərindən qəzet-jurnalları mütaliə etməyi sevirəm. "Azərbaycan Ordusu" qəzetinin isə hərbi xidmətə başladığım gündən fəal oxucularından biriyəm. Qəzetdə dərc olunan məqalələr vasitəsilə döyüş postları, ordakı məişət şəraiti, əsgərlərimizin mənəvi-psixoloji vəziyyəti, silahlar, ölkəmizdə və dünyada baş verənlər barədə ətrafı məlumatlar almaq imkanımız olur. Bütün bunlarla yanaşı əsgər məktublarını da oxuyuram. Qərara gəldim ki, mən də məktub yazım.

Uşaqlıq illərində hər birimiz əsgər olmaq arzusunda olmuş, silahlı oyunlar oynamışıq. Səbəb isə ailədə, məktəbdə bizə düşmənlərimizin vəhşilikləri haqqında danışılanlar olub. Süngüyə sancılan körpələrimiz, dərisi soyulan ahıllarımız və canını bu torpağa qurban verən oğullarımız erməni faşizminin qurbanı olub. Əminəm ki, Vətənə övlad sevgisi olan hər bir azərbaycanlı əlinə silah alıb düşməni məhv etməyi düşünür.

Atam hərbçidir. Onun yuxusuz gecələrinin, çəkdiyi əziyyətlərin şahidiyəm. Çox zaman evə gec gələr, otağıma daxil olub mən yuxudaykən saçımı tumarlayıb gedərdi. Səhər yuxudan oyananda isə çoxdan getmiş olardı. Atamın müharibədə, döyüşlərdə iştirak etməsi ilə daim qürurlanmışam. Və tez bir zamanda böyümək, əlimə silah alıb atamla, Vətən keşiyində duran oğullarla birlikdə vuruşmaq istəyirdim.

Artıq əsgərəm, hərbi andı bu yaxınlarda qəbul etmişəm. Xidmətimin ilk günündən özümə söz verdim ki, nizam-intizamlı olacam, Vətənimə şərəflə xidmət edəcəm. Burada bizi birləşdirən ümumi bir məqsəd var: Əzəli düşmənimiz olan mənfur ermənilərə qarşı mübarizə aparmaq, Vətəni bütün təhlükələrdən qorumaq. Bizim qardaşlığımız belədir: Soyuq, isti bilmədən Vətənin keşiyində çiyin-çiyinə dayanmaq və daim bir-birimizi qorumaq.

Məktub vasitəsilə valideynlərimə və onların timsalında bütün ata-analara demək istəyirəm ki, bizlərdən nigaran olmayın. Hər birimizə diqqət və qayğı yüksək səviyyədədir. Təlim və dərslərdə həvəslə iştirak edir, döyüşçü peşəsinin sirlərini dərindən öyrənməyə çalışırıq. Öyrəndiklərimizi isə torpaqlarımızın azad edilməsi uğrunda savaş olarsa, onda həyata keçirəcəyik.

Hər birimiz sizlərə, bütün Azərbaycana söz veririk ki, "DÖYÜŞ" əmri verildikdə qələbə qazanan yalnız biz olacağıq...

**Fərhad ƏHMƏDOV,**
**"N" hərbi hissəsinin əsgəri**

# Ərəb dilində "Dağlıq Qarabağ və beynəlxalq hüquq: münaqişənin kökləri və həlli variantları" adlı kitab nəşr edilib

*Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) ərəb dillində "Dağlıq Qarabağ və beynəlxalq hüquq: münaqişənin kökləri və həlli variantları" adlı kitab nəşr etdirib.*

AZƏRTAC-a bildirilib ki, kitabın müəllifi misirli alim və politoloq, "Dialoq" siyasi və media araşdırmalar mərkəzinin müdiri Taha Əhməddir. Müəllif ərəb oxucusuna Azərbaycanın Dağlıq Qarabağ regionunun siyasi tarixi barədə məlumat verməklə yanaşı, münaqişəni beynəlxalq hüquq prizmasından ətraflı şəkildə təhlil edir.

Kitabda "Qarabağ regionu qədim dövrdə", "Qarabağ müxtəlif müsəlman və türk dövlətlərin tərkibində", "Qarabağ xanlığı", "Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi", "erməni dövlətinin yaranması", "Dağlıq Qarabağ Azərbaycan Demokratik Respublikasının tərkibində (1918-1920)", "Dağlıq Qarabağ SSRİ dövründə", "Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan torpaqlarının işğalı" kimi mövzular əksini tapıb.

Tarixi-siyasi araşdırmalarından sonra müəllif Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə beynəlxalq hüquq nöqteyi-nəzərindən baxır, probleme dair beynəlxalq təşkilatların qərarlarını və qətnamələrini təhlil edir.

Qeyd edək ki, kitabda Dağlıq Qarabağ münaqişəsinə aid beynəlxalq qərarlar ilk dəfə ərəb dilində diqqətlə öyrənilir və müzakirə olunur.

Kitabın müəllifi vurğulayır ki, beynəlxalq hüququn prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü çoxdan bərpa olunmalı idi. Qeyd edilir ki, münaqişənin həlli məsələsində beynəlxalq strukturların passivliyi, ikili standartlar və Ermənistanın Azərbaycana qarşı 20 ildən çox davam edən təcavüzü həm regional, həm də beynəlxalq təhlükəsizlik üçün böyük təhdid mənbəyidir.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi yeniliklər, ənənələr

## "Barıs" zirehli transportyoru

Rusiya ilə Qazaxıstanın birgə istehsalı olan "Barıs" döyüş maşını ilk dəfə Astana şəhərində keçirilən KADEX-2016 silahlanma sərgisində nümayiş etdirilib. Burada "Uralvaqonzavod"da istehsal olunan 57 mm. kalibrli AU-220M döyüş modeli "Barıs" maşınında quraşdırılır.

Bu döyüş modeli dairəvi fırlanan distansion idarəolunan döyüş sistemi kimi hazırlanıb. Verilən məlumata görə, dünyada elə bir zirehli transportyor və piyada döyüş maşınları yoxdur ki, AU-220M-dən atılan atəşə davam gətirsin. 2015-ci ildən başlayaraq Astana şəhərində "Barıs" zirehli transportyorunun yığılmasına başlanılıb. Bu maşın mina əleyhinə və ballistik müdafiəyə görə yüksək göstəricilərə malikdir. "Barıs" zirehli maşını qarşıya qoyulan bütün tapşırıqları həm gündüz, həm də gecə vaxtlarında, müxtəlif iqlim şəraitində yerinə yetirməyə qadirdir. Ondan yüksək keyfiyyətli piyada döyüş maşını kimi də istifadə etmək olar. Onun üzərində qoşa pulemyot, top və yaxud məsafədən idarəolunan döyüş modeli də quraşdırmaq olar.



Zirehli gövdəsi onu yerüstü minalardan, əldəqayırma partlayıcı qurğulardan qoruya bilir. Maşına sürücü, komandir, tuşlayıcı olmaqla səkkiz nəfəri tam təchiz olunmuş formada yerləşdirmək olar.

"Barıs" zirehli transportyorun çəkisi 27000 kiloqram, uzunluğu 7715 mm, eni 2545 mm, hündürlüyü 2340 mm, şosse yolda maksimal sürəti saatda 100 km-dir, boru-dizelli mühərriki 336 kilovat gücündədir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Azad Suriya Ordusu daha 13 kəndi azad edib



Türkiyə ordusunun Suriyada həyata keçirdiyi "Fırat qalxanı" əməliyyatı çərçivəsində dəstəklədiyi müxalif Azad Suriya Ordusu daha 13 kəndi terrorçulardan azad edib.

Anadolu agentliyinin məlumatına görə, Azad Suriya Ordusu Cerablus bölgəsində 10, Rai bölgəsində isə 3 kəndi terrorçulardan təmizləyib.

Qeyd edək ki, "Fırat qalxanı" adlı əməliyyata avqustun 24-də start verilib.

## Liviya sahillərində 6500 miqrant xilas edilib



İtaliyanın Sahil Mühafizə Xidməti dünən Liviya sahillərində 6500 miqrantın xilas edilməsi ilə bağlı açıqlama yayıb.

Açıqlamada gün ərzində əməliyyat mərkəzi tərəfindən 40 xilasetmə əməliyyatının keçirildiyi qeyd olunur. Vurğulanır ki, İtaliya sərhəd mühafizəsinin və dəniz donanmasının, Fronteks agentliyinin və humanitar təşkilatların gəmiləri ümumilikdə 6500 miqrantı xilas edib.

## Türkiyə hərbi aviasiyası Suriyada 25 PKK və PYD terrorçusunu məhv edib



Türkiyə Silahlı Qüvvələrinin aviasiyası Suriyanın şimalında yerləşən Cerablus şəhərində PKK və onun Suriya qolu PYD-nin mövqelərini bombalayıb.

PYD-nin Türkiyə ordusunun dəstəklədiyi Azad Suriya Ordusuna və Türkiyə hərbi qüvvələrinə atəş açmasından sonra qırıcı təyyarələr terrorçuların istifadəyə etdiyi 5 binanı bombalayıb, 25 silahlı məhv edilib.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı əməliyyatlar zamanı mülki şəxslərin zərər görməməsinə xüsusi diqqət yetirildiyini bildirib.

## Dünyanı dövr edən ən gənc insan



Avstraliyalı 18 yaşlı Leklen Smart dünyanı motorlu təyyarə ilə dövr edən ən gənc insan olub. Bu barədə "Brisbane Times" xəbər portalı məlumat yayıb.

Leklen Smart 54 gün davam edən səyahəti zamanı dünyanın 15 ölkəsində, 24 dəfə eniş edib. O, səyahəti zamanı əsasən hava şəraitinin, xarici aviadispetçerlərlə ünsiyyətin və digər insanların dəstəyinin olmamasının çətinliklər yaratdığını bildirib.

Avstraliyalı əvvəlki rekordçu amerikalı Metta Qutmillerdən bir yaş kiçikdir.

L.Smart avqustun 27-də Avstraliyanın Kvinsland ştatının şimal-şərqində yerləşən aeroportlardan birinə eniş edib.

## Yəməndə baş vermiş partlayışda ölənlərin sayı 71 nəfərə çatıb



Yəmənin Aden şəhərində partlayışdan həlak olanların sayı 71 nəfərə çatıb, 98 nəfər isə yaralanıb. Hadisə Yəmən ordusuna könüllülərin qəbulu məntəqəsi yaxınlığında terrorçu kamikadzenin avtomobilini partlatması nəticəsində baş verib.

Terror aktının məsuliyyətini İŞİD radikal terror qruplaşması öz üzərinə götürüb.

**AZƏRTAC-ın materialları əsasında**

Tariximiz

# Xan bağı haqqında nə bilirik?

*Gəncədə yalnız tarixi tikililər deyil, həm də elə məkanlar var ki, onlar da abidələr qədər böyük əhəmiyyətə malikdir və hər kəsə bu yerlərin qədim tarixindən xəbər verir. Belə məkanlardan biri də Xan bağıdır.*



Hazırda Gəncədə istər genişliyinə, istərsə də gözəlliyinə görə bir-birindən yaraşıqlı parklar, xiyabanlar, istirahət guşələri olsa da, şəhərin mərkəzindəki Xan bağı gəncəlilər üçün ən sevimli istirahət məkanı olaraq qalmaqdadır.

Xan bağı yalnız adi istirahət parkı deyil, bura həm də şəhərin son 500 illik tarixinə şahidlik edən əvəzsiz məkandır.

Hazırda 3 hektarlıq ərazini əhatə edən Xan bağı ilin bütün fəsillərində gözəldir, istər yaşlı, istərsə də yeniyetmə və gənclərin mədəni istirahəti üçün ən ideal məkandır.

Deyilənlərə görə, Xan bağı Gəncə-Qarabağ bəylərbəyilərinin istirahət ovlağı olub. Keçmişdə xeyli böyük olan bu yeri gözəlliyinə görə "Ənbər guşə" adlandırıblar. Vaxtilə beş yüzdən artıq ağac və gül növünün olduğu bağda bitkilərin 150 növü vegetativ həyat sürüb.

Tarixi mənbələr bu bağın 1588-ci ildə Osmanlı qoşunlarının Qafqazdakı komandanı Fərhad paşa tərəfindən salındığını yazır. Səfəvi-Osmanlı döyüşlərindən sonra türk qoşunları tərəfindən işğal olunan Gəncəni qorumaq məqsədilə Fərhad paşa Sultan III Muradın əmrinə əsasən şəhərin əvvəlki qalasından 6-7 kilometr aralıda yeni qala tikdirib. Qala divarlarının inşası tamamlandıqdan sonra Fərhad paşa Qara dəniz sahilindən, xüsusilə Batumidən hündürlüyü 3-4 metr olan Xamerops palması, Himalay kedrası, bambuq ağacı, yunan qozu, Suriya qızılgülü, yapon saforası, rozmarin, həmçinin digər müxtəlif növ ağac və gül kolları gətizdirərək bu bağda əkdirib.

Xan bağı bütün dövrlərdə Gəncə xanlarının sevimli istirahət məkanı olaraq qalıb. 1804-cü ildə Gəncə xanlığı rus qoşunları və general Sisiyanov tərəfindən işğal olunan zaman şəhərin yalnız tikililəri deyil, həm də Xan bağı ciddi ziyan görüb. Belə ki, top atəşlərindən sonra bağ və oradakı 400 yaşlı çinar ağaclarının bir qismi od tutaraq yanıb. 1856-cı ildə Tiflis hərbi qubernatorunun göstərişinə əsasən Gəncənin baş planı hazırlanarkən yeni layihədə bağın abadlaşdırılması da nəzərdə tutulub. 1868-ci ildə Gəncəyə quberniya statusu verildikdən sonra imperatorun əmri ilə onun baş planı hazırlanıb. Beləliklə, bağda inşaat işləri aparılıb və buradakı nadir ağac növləri və bəzək kollarının sayı azaldılıb.

1873-cü ildə III Aleksandr tərəfindən imzalanan, müəllifi memar İ.İ.Krjiştaloviç olan şəhərin yeni baş planına əsasən bağda növbəti dəfə dəyişiklik edilib. Layihəyə əsasən bağa yeni ağac və gül növləri - ağ akasiya, katalon, kipris, Eldar şamı, Sabin şamı, nar, yapon xurması, çəhrayı çiçəkli oleandr, eləcə də digər ağac və gül kolları gətirilib. Həmçinin, bağa ilk dəfə olaraq heykəllər qoyulub və ətirli ağaclar əkilib. Lakin 1887-ci ildə şəhərin yeni layihəsi hazırlanarkən bağda ağacların bir hissəsi kəsilib, tikinti işləri aparılıb.

Hazırda Xan bağında 1588-ci ildə inşa edilən Gəncə qala divarlarının qalığı olan Şirəli bəy bürcü və Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarüstü abidəsi yerləşir. Yaşı 300-ü ötmüş cərgə ilə əkilən çinarların arasında Azərbaycanın ilk qadın xalq şairi Nigar Rəfibəylinin abidəsi ucaldılıb. Xan bağında şəhərin mədəni tədbirləri üçün nəzərdə tutulan açıq səma altında yerləşən "Yaşıl Teatr" da var.

**AZƏRTAC-ın materialları əsasında**

Maraq dünyamız

## Sonuncu süvarilər

Süvarilərdən sonuncu dəfə İkinci Dünya müharibəsi zamanı istifadə olunub. Həmin vaxt Monqolustanın süvari diviziyası Almaniyanın piyada diviziyası ilə döyüşə girib. Nəticədə 2 min monqol atlısı məhv edilib.

## Dünya tarixində ilk diplomatik müqavilə

Dünya tarixində ilk diplomatik müqavilə Misir və Het dövlətləri arasında bağlanıb.

Bu müqavilə hər iki dövlət arasında gedən Kadeş müharibəsi sonunda Suriya torpaqlarının bölüşdürülməsi ilə nəticələnib.

1906-cı ildə qədim Het dövlətinin paytaxtı olmuş Hattuşada aparılmış qazıntılar nəticəsində tapılmış müqavilənin orijinal variantı İstanbul arxeologiya muzeyində mühafizə olunur. Suriya torpaqları üzərində ziddiyyət Kadeş müharibəsinə səbəb olmuşdu.

## Makedoniyalı İsgəndərin fəndi

Makedoniyalı İsgəndər casusluq fəaliyyəti ilə də şöhrət qazanıb. O, döyüşçülərini doğmalarına məktub yazmağa məcbur edib və onların hər birinin hansı mənsubiyyətə malik olduğunu aşkara çıxarıb. Şübhə doğuran döyüşçülər dərhal edam edilib.

## Ən qanlı müharibə Çində olub

Tarixdə ən qanlı 10 müharibədən səkkizi Çin ərazisində baş verib. Çində baş verən iki böyük müharibədən hər birində Birinci Dünya müharibəsində ölənlərdən çox insan həlak olub.

## Ən qısa müharibə

Dünyanın ən qısa müharibəsi cəmi 38 dəqiqə davam edib. Bu müharibə İngiltərə və Zanzibar sultanlığı arasında 1896-cı ilin 27 avqustunda baş verib. Müharibəyə səbəb isə Zanzibarın yeni hökmdarı Xalid ibn Bərqaşın Böyük Britaniya ilə əməkdaşlığını dayandırması olub. İngilislər Zanzibara avqustun 27-də saat 9:00-da təslim olmağı tələb ediblər. Lakin Zanzibar sultanı 2800 nəfərdən ibarət ordu ilə müharibəyə qatılıb. Böyük üstünlüyə malik olan ingilislər Zanzibar ordusunu ağır məğlubiyyətə uğradıblar. Bu müharibədə 570 nəfər həlak olub ki, onların da hamısı Zanzibar tərəfdən idi.

Bu müharibə Ginnesin Rekordlar kitabına dünyanın ən qısa müharibəsi kimi daxil olub.

**Hazırladı:**
**çavuş**
**Rəşad ƏMRAHOV**

# İdman

## Çimərlik futbolu üzrə Azərbaycan millisi A divizionuna vəsiqə qazanıb



Çimərlik futbolu üzrə Azərbaycan milli komandası İtaliyanın Katanya şəhərində təşkil olunmuş Avropa Liqasının super final mərhələsində son oyununu keçirib.

Super final mərhələsinin həlledici görüşündə millimizin rəqibi Macarıstan yığması olub. Oyun 5:5 hesabı ilə başa çatdığı üçün qalib penalti seriyasında müəyyənləşib. Zərbələri daha sərrast yerinə yetirən futbolçularımız 4:3 (ümumi hesabda 9:8) hesabı ilə qalib gəlib.

Bununla da millimiz Avropa Liqasının B divizionundan A divizionuna vəsiqə qazanıb.

Xatırladaq ki, Avropa Liqası turnirinin super final mərhələsində millimiz Türkiyə yığmasını 5:3, İngiltərə komandasını 2:0, Çexiya futbolçularını isə 5:1 hesabı ilə məğlub etmişdi.

## Zamiq Atakişiyev peşəkar rinqdə növbəti qələbəsini qazanıb



"Qəbələ" İdman Klubunun boksçusu Zamiq Atakişiyev növbəti döyüşünü keçirib.

30 yaşlı idmançı peşəkar rinqdə ikinci döyüşünə çıxıb. Təmsilçimiz Moskvada keçirilən görüşdə Belarus idmançısı Viktor Çvarkovla qarşılaşıb. Boksçumuz ağır çəki dərəcəsində altı raunddan ibarət döyüşdə qələbə qazanıb. Bu, onun peşəkar rinqdə ikinci nailiyyəti olub.

Qeyd edək ki, Zamiq iyulun 31-də keçirdiyi peşəkar rinqdəki ilk döyüşündə rusiyalı Vladimir Qonçarovu nokautla məğlub etmişdi.

## Azərbaycan yığma komandası alpaqut döyüş növü üzrə dünya kubokunun qalibi olub



Alpaqut döyüş növü üzrə Azərbaycan yığma komandası birinci dünya kubokunun qalibi olub.

Gürcüstanın Batumi şəhərində keçirilmiş yarışda Azərbaycanla yanaşı, Türkiyə, İran, Qırğızıstan və Qazaxıstanın alpaqutçuları da güclərini sınayıblar.

Azərbaycan idmançıları yarışda 3 sistem üzrə 51 medal (24 qızıl, 22 gümüş, 5 bürünc) qazanıblar. Aypara sistemi üzrə 2 qızıl, 3 gümüş, Batur sistemi üzrə 17 qızıl, 15 gümüş, 5 bürünc, Caymaz sistemi üzrə isə 5 qızıl, 4 gümüş medal qazanmaları Azərbaycan alpaqutçularını birinci edib.

## Karateçimiz İndoneziyada dünya çempionu olub



Kata üzrə Avropa üçüncüsü Roman Heydərov Beynəlxalq Şotokan Karate-do Federasiyasının (SKİF) 12-ci dünya çempionatının qalibi olub.

Azərbaycan Milli Karate Federasiyasının və SKİF-in Azərbaycan təşkilatının prezidenti Yaşar Bəşirovun rəhbərliyi ilə İndoneziyanın paytaxtı Cakartada mötəbər yarışa yollanan üç idmançımızdan "Arpaçay" klubunun üzvü R.Heydərov rəqiblərinə maksimal üstünlüklə qalib gəlib. 16-17 yaşlı gənclər seçmə komandasının üzvü, dünya ikincisi Fidan Teymurova isə yarışın ikinci günü tatamiyə çıxacaq. Ondan başqa "Qaraqaplan" klubunun perspektivli idmançısı 13 yaşlı Rəvan Bağırov da ertəsi gün mübarizəyə qatılacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Məsul katib
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
leytenant
Günay TAĞIYEVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 479
Nüsxə 4650